**Buraxılış və qəbul imtahanlarında balların hesablanma qaydası**

**I-IV ixtisas qrupları üzrə qəbul imtahanında balların hesablanma qaydası**

| I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|
| Riyaziyyat - 30 tapşırıq (22 qapalı + 5 açıq + situasiya əsasında həllinin yazılması tələb olunan 3 tapşırıq).<br>Çəki əmsalı: 1,5 | Riyaziyyat - 30 tapşırıq (22 qapalı+5 açıq + situasiya əsasında həllinin yazılması tələb olunan 3 tapşırıq).<br>Çəki əmsalı: 1,5 | Azərbaycan (rus) dili - 30 tapşırıq (22-qapalı+5 açıq + mətn əsasında yazılması tələb olunan 3 tapşırıq).<br>Çəki əmsalı: 1,5 | Biologiya - 30 tapşırıq (22 qapalı +5 açıq +situasiya əsasında həllinin yazılması tələb olunan 3 tapşırıq).<br>Çəki əmsalı: 1,5 |
| Fizika - 30 tapşırıq (22 qapalı+5 açıq + situasiya əsasında həllinin yazılması tələb olunan 3 tapşırıq)<br>Çəki əmsalı: 1,5 | Coğrafiya - 30 tapşırıq (22 qapalı+5 açıq + situasiya əsasında həllinin yazılması tələb olunan 3 tapşırıq)<br>Çəki əmsalı: 1,5 | Tarix-30 tapşırıq (22-qapalı+5 açıq + mənbə əsasında yazılması tələb olunan 3 tapşırıq)<br>Çəki əmsalı: 1,5 | Kimya - 30 tapşırıq (22 qapalı+5 açıq + situasiya əsasında həllinin yazılması tələb olunan 3 tapşırıq)<br>Çəki əmsalı: 1,5 |
| Kimya - 30 tapşırıq (22 qapalı + 5 açıq + situasiya əsasında həllinin yazılması tələb olunan 3 tapşırıq)<br>Çəki əmsalı: 1 | Tarix - 30 tapşırıq (22 qapalı+5 açıq +mənbə əsasında yazılması tələb olunan 3 tapşırıq).<br>Çəki əmsalı: 1 | Ədəbiyyat - 30 tapşırıq (22 qapalı+5 açıq + mətn əsasında yazılması tələb olunan 3 tapşırıq)<br>Çəki əmsalı: 1 | Fizika - 30 tapşırıq (22 qapalı+5 açıq + situasiya əsasında həllinin yazılması tələb olunan 3 tapşırıq)<br>Çəki əmsalı: 1 |

**Maksimal bal: 400**

Cədvəldən göründüyü kimi, abituriyentlərə hər fənn üzrə 30 tapşırıq (ümumilikdə 90 tapşırıq) təqdim olunur. Bu tapşırıqların 22-si qapalı, 8-i isə açıq tiplidir. Açıq tipli tapşırıqlardan 3-ü yazılı şəkildə cavablandırılması tələb olunan situasiya, mətn və yaxud mənbə əsasında hazırlanan tapşırıqlardır. Digər açıq tipli tapşırıqlar uzun müddətdir istifadə olunan hesablama, seçim, xronologiya, uyğunluğu müəyyənetmə tipli tapşırıqlardır. Situasiya, mətn və yaxud mənbə əsasında hazırlanan açıq tipli tapşırıqlar 0, 1 və ya 2 balla, digər açıq və qapalı tipli tapşırıqlar isə 0 və ya 1 balla qiymətləndirilirlər.

Abituriyentin qəbul imtahanı üzrə ümumi balı hesablanarkən hər bir fənn üzrə topladığı nisbi ballar cədvəldə verilmiş müvafiq çəki əmsallarına vurulmaqla cəmlənir. Hər bir fənn üzrə nisbi bal aşağıdakı qaydada hesablanır və 0.1-ə qədər yuvarlaqlaşdırılır:

$$\boldsymbol{NB} = \boldsymbol{NB_q} + \boldsymbol{NB_a},$$

burada NB – fənn üzrə nisbi bal; NBq – qapalı tipli test tapşırıqları üzrə nisbi bal; NBa – açıq tipli test tapşırıqları üzrə nisbi baldır.

$$NB_q = \left( D_q - \frac{1}{4} Y_q \right) * \frac{100}{33}$$ (hesablamanın nəticəsi mənfi alınarsa, NBq=0 götürülür),

burada Dq – qapalı tipli test tapşırıqları üzrə doğru cavabların sayı; Yq – qapalı tipli test tapşırıqları üzrə yanlış cavabların sayıdır.

$$NB_a = D_a * \frac{100}{33}$$

burada Da – açıq tipli test tapşırıqları üzrə balların cəmidir.

Açıq tipli test tapşırıqları üzrə səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərmir.

**Tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı, əvvəlki illərin məzunları üçün qəbul imtahanının I mərhələsində ballarının hesablanma qaydası**

| | Fənnin adı | Maksimal bal | Tapşırıqların sayı | Bal |
|---|---|---|---|---|
| 1. | Tədris dili - Azərbaycan dili | 100 | Oxuyub anlamaya dair 2 mətn (bədii, publisistik formalı) - hər mətnə 10 tapşırıq (5 yazı tələb olunan açıq tipli + 5 qapalı tipli tapşırıq) və dil qaydalarına dair 10 qapalı tipli tapşırıq.<br>Cəmi: 30 tapşırıq | $\frac{5}{2}$ ·(2nd(açıq, yazılı)+nd(qapalı)) |
| 2. | Riyaziyyat | 100 | 7 açıq tapşırıq (həllin yazılması tələb olunan) + 5 açıq tipli tapşırıq + 13 qapalı tipli tapşırıq.<br>Cəmi: 25 tapşırıq | $\frac{25}{8}$ ·(2nd(açıq,yazılı)+ +nd(açıq, ənənəvi)+ nd(qapalı)) |
| 3. | Xarici dil (ingilis, alman, fransız, rus, ərəb, fars dilləri) | 100 | 1. Dinləyib anlamaya dair mətn (publisistik və ya dialoq formalı) - 6 tapşırıq (3 qapalı tipli + 3 yazı tələb olunan açıq tipli);<br>2. Oxuyub-anlamaya dair mətn - 8 tapşırıq (4 qapalı tipli + 4 yazı tələb olunan açıq tipli) ;<br>3. 16 qapalı tipli tapşırıq.<br>Cəmi: 30 tapşırıq | $\frac{100}{37}$ ·(2nd(açıq,yazılı)+nd(qapalı)) |

**Maksimal bal: 300**

nd(açıq)- açıq tipli test tapşırıqlarına verilmiş balların cəmi

nd(qapalı)- qapalı tipli test tapşırıqlarına verilmiş balların (düzgün cavabların) cəmi

İmtahan bir mərhələdə keçirilir, şagirdlərin bilik və bacarıqlarını yoxlamaq məqsədi ilə onlara ümumilikdə 85 tapşırıq təqdim edilir.

**Ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı, əvvəlki illərin məzunları üçün ümumi orta təhsil səviyyəsində kolleclərə qəbul imtahanında ballarının hesablanma qaydası**

**I mərhələ**

| | Fənnin adı | Maksimal bal | Tapşırıqların sayı | Bal |
|---|---|---|---|---|
| 1. | Tədris dili - Azərbaycan dili | 30 | Oxuyub anlamaya dair 2 mətn (bədii, publisistik)-hər mətnə 10 tapşırıq (5 yazı tələb olunan açıq tipli + 5 qapalı tipli).<br>Cəmi: 20 tapşırıq | 2·nd(açıq)<br>+<br>nd(qapalı) |
| 2. | Riyaziyyat | 30 | 10 açıq tapşırıq (həllin yazılması tələb olunan)<br>Cəmi: 10 tapşırıq | 3·nd(açıq) |
| 3. | Xarici dil (ingilis, alman, fransız, rus, ərəb, fars dilləri) | 30 | 1. Dinləmə mətni (publisistik və ya dialoq) 6 tapşırıq (4 qapalı tipli + 2 yazı tələb olunan açıq tipli);<br>2. Oxuyub-anlama mətni - 9 tapşırıq (5 qapalı tipli+ 4 yazı tələb olunan açıq tipli).<br>Cəmi: 15 tapşırıq | $\frac{10}{7}$ ·(2nd(açıq)<br>+<br>nd(qapalı)) |

**II mərhələ**

| | Fənnin adı | Maksimal bal | Tapşırıqların sayı | Bal |
|---|---|---|---|---|
| 1. | Tədris dili - Azərbaycan dili | 70 | 30 qapalı | $\frac{7}{3}$ ·nd |
| 2. | Riyaziyyat | 70 | 30 qapalı | $\frac{7}{3}$ ·nd |
| 3. | Xarici dil (ingilis, alman, fransız, rus, ərəb, fars dilləri) | 70 | 30 qapalı | $\frac{7}{3}$ ·nd |

nd(açıq)- açıq tipli test tapşırıqlarına verilmiş balların cəmi

nd(qapalı)- qapalı tipli test tapşırıqlarına verilmiş balların (düzgün cavabların) cəmi

Birinci mərhələdə şagirdlərin bilik və bacarıqlarını yoxlamaq məqsədi ilə onlara ümumilikdə 45 tapşırıq, ikinci mərhələdə isə 90 qapalı tipli test tapşırığı təqdim edilir.